# ADA İbtidai Məktəbi




***Yeni məktəb,***
***Yeni kampus,***
***Yeni təhsil fəlsəfəsi***

MƏKTƏB ◦ SCHOOL
ADA

# ADA təhsilinin pillələri

ADA Universitetinin akademik mükəmməllik dəyərləri və təlim-tədris praktikası əsasında fəaliyyət göstərəcək ADA İbtidai Məktəbi 2024-cü ildə 1, 2 və 3-cü siniflərə ilk şagirdlərini qəbul edir.




# ADA İbtidai Məktəbi

- 2024-cü ildə 1, 2 və 3-cü sinflərə şagird qəbulu
- İki dildə təhsil: Humanitar fənlər Azərbaycan dilində, dəqiq fənlər ingilis dilində
- Qala yolunda yerləşən, təbiət qoynunda yeni yaşıl ADA kampusunda təhsil
- ABŞ və Avropa təcrübəsinə əsaslanan, özünəməxsus ADA kurikulumu
- Həm sinif otaqlarında, həm də emalatxanada, laboratoriyada, kitabxanada, bağda, bostanda və fermada təlim-tədris
- Şagirdlərin Qala kampusuna məktəb avtobusu ilə çatdırılması və qidalanma




Dürüstlük
Empatiya
Hörmət
Açıq fikirlilik

Tənqidi düşüncə
Yaradıcılıq
Əməkdaşlıq
Ünsiyyət
Vətəndaşlıq

Öyrənməyə can atan
Axtardıqca yaradan
Sıx əməkdaşlıq edən
Yaxın ünsiyyət quran
Qayğıkeş vətəndaş

# İbtidai təhsilin 5 sütunu

1

## Balanslı təhsil

Bizim üçün bilik qədər düşüncə tərzi və şagirdin şəxsiyyət kimi formalaşması da vacibdir. Proqramımız məzmun bilikləri ilə gənc fərdin şəxsi inkişafı arasında balansı təmin edir. Şagirdlərimiz müxtəlif fənlərdən bilik əldə edir, eyni zamanda, fəal şəkildə öyrənmək üçün yaradıcı bir mühitdə yetişirlər.

2

## Qlobal düşüncə tərzi

Məktəbimizdə müzakirələr zamanı, insanların eyni məsələ haqqında fərqli anlayışlara sahib olduğunu, hər birimizin öz düşüncələri və inancları olduğunu dərk edirik. Başqalarının fikirlərini dinləməyi, onlara hörmət etməyi öyrədirik. Şagirdlərimiz müxtəliflik içərisində özlərini rahat hiss edir, başqa fikirlərə və mədəniyyətlərə dəyər verməyə başlayır.

3

## Azərbaycan vətəndaşı

Şagirdlərimiz Azərbaycan dili, tarixi, mədəniyyəti və irsini dərindən öyrənir. İlk növbədə, fəxrlə öz ana dilimizdə gözəl danışırlar. ADA İbtidai Məktəbində Azərbaycanşünaslıq bütün fənlərin özəyidir. Bu məktəbdə başlayan həyat yolunda şagirdlərimizə güclü vətəndaşlıq hissi bələdçilik edir. Uşaqlarımız milli kimliyimizi dərk edir və bununla qürur duyur.

4

## Məktəb mənim evimdir

Məktəbimiz bizim evimizdir. Burada şagirdlərimizə güvən, inam, qiymət və qayğı var. Bizim məktəb bir bina deyil, bizim sağlam mühitimiz və yaşam tərzimizdir.

5

## Müəllim mənə nümunədir

Müəllimlərimiz şagirdlərə xəyal qurmaq, özünə inanmaq, sədləri aşmaq fikirlərini aşılayırlar. Onlar təkcə bilik vermir, oxumağa həvəsləndirir, özümüzü kəşf etməyə və şəxsiyyətimizi inkişaf etdirməyə sövq edir. Şagirdlərimiz biliklər öyrənəcək, bəlkə nələrisə unudacaqlar, lakin onlara nümunə olan ibtidai məktəb müəllimlərini heç zaman unutmayacaqlar.

# Qala kampusu



## Elm və Təbiət

Hündür ağaclar, al-əlvan güllər •
Bostanda meyvə-tərəvəz, fermada heyvanlar •
Laboratoriyada təcrübə, bağda dərs •
Bitkilərə, heyvanlara, torpağa, suya toxunaraq öyrənmə •
Təbiəti təbiətdə kəşf etmə •



## İncəsənət və Mədəniyyət

- Qala kampusu - Bir incəsənət parkı
- Cığırlar boyu heykəllər və əl işləri
- “Galleria ADA”da sənət əsərləri
- Yaradıcı mühit

## Vücud və Ruh

Sağlam bədən, sağlam ruh •
Açıq havada və qapalı məkanda dərs, məşğələ •
İdman zalı, futbol, basketbol, oyun meydançası •



# Kurikulum

Azərbaycanşünaslıq ADA İbtidai Məktəbində təhsilin əsasını təşkil etməklə humanitar elmlərin, incəsənət və mədəniyyəti aşılayan fənlərin əsas özəyi olacaq.

ABŞ və Avropa təhsil modelinin ən mütərəqqi dəyərlərini cəmləşdirərək, özünəməxsus kurikulum əsasında təhsil verən ADA İbtidai Məktəbi bacarıq və fiziki hazırlıq tələb edən fənlər üçün bütün avadanlıqlarla təchiz edilib.

# Qəbul prosesi

Müraciət üçün ADA İbtidai Məktəbi onlayn müraciət formasını doldurmaq və əlavə sənədləri ərizəyə yükləmək lazımdır.

Elektron ərizə üçün keçid:

www.ada.edu.az/apply

Elektron ərizəyə yüklənilməsi tələb olunan sənədlər:

- Şəxsiyyət vəsiqəsi
- Doğum haqqında şəhadətnamə
- Foto (3x4)
- Ərizə rüsumu: 50 AZN (yalnız onlayn ödəmə)

# Tədris planı

## Tədris planı 10 fənn ətrafında qurulub

- Azərbaycanşünaslıq
- İngilis dili
- Qlobal perspektivlər
- Riyaziyyat
- Dəqiq elmlər – kimya, biologiya, fizika, yer və kainat
- Rəqəmsal bacarıqlar
- İncəsənət və dizayn
- Musiqi
- Dram dərsləri və səhnə bacarıqları
- İdman və sağlamlıq



